# Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sından irəli gələn bəzi məsələlər barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının 2001-ci il 16 fevral tarixli Qanunu ilə Azərbaycan Respublikasının qoşulduğu Birləşmiş Millətlər Təşkilatının 1989-cu il martın 22-də Bazel şəhərində imzalanmış "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sının 5-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sı üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan təyin edilsin.

2. Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sının 5-ci maddəsində nəzərdə tutulmuş mərkəz Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzdində Təhlükəli Tullantıların İdarə Olunması Agentliyi təyin edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, sərəncamın 1-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında Bazel Konvensiya"sı üzrə Azərbaycan Respublikası tərəfindən səlahiyyətli orqan və 2-ci bəndinə müvafiq olaraq həmin Konvensiyanın 5-ci maddəsində nəzərdə tutulmuş mərkəz Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində Təhlükəli Tullantıların İdarə Olunması Agentliyinin təyin olunması barədə Birləşmiş Millətlər Təşkilatına müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 yanvar 2004-cü il
№ 59